# AZƏRBAYCAN MƏDƏNİYYƏTİ, FOLKLORU, ƏDƏBİYYATI VƏ FƏLSƏFİ DÜNYAGÖRÜŞÜNDƏ EKOLOJİ MONİTORİNQ MƏSƏLƏLƏRİ

**Əfsanə Kamilova**

*Kaspi liseyi, Bakı*
*efskamilova@gmail.com*

Bu gün tarixin elə bir mərhələsini yaşayırıq ki, hər bir kəs elin yaddaşında pöhrələnən mənəvi sərvətimizin taleyini və sabahını düşünür. 30 il əvvəl itirdiyimiz torpaqlarımızı qisa vaxt ərzində qəhrəmanlıqla geri qaytarmağımız məhz mədəniyyətimizə, abidələrimizə, mənəvi dəyərlərimizə olan sevgidən, hörmətdən qaynaqlanır.

Dünyada dəyişən ekoloji şəraitdə Azərbaycanın öz milli, mənəvi sərvətlərinin qorunub saxladığının şahidi oluruq. Azərbaycanın zəngin bitki örtükləri, insanların bunu bilib qayğı ilə yanaşması təbiətə olan hörmətindən irəli gəlir. Milli parklar, təbiət abidələri və qorunan sahələr respublikanın ekologiya sahəsində fəaliyyətlərinin bir nümunəsidir. Azərbaycanın adət-ənənələri təbiətin balansını qorumaq üzərində qurulmuşdur. Novruz bayramında edilən təmizlik işləri və ağacəkmə adətinin olması həm insanlarımızın birliyini ifadə edir, həm də təbii ekoloji mühitin qorunması adına önəmli addım kimi qiymətləndirilir.

Artan ekoloji problemlərin müstəvisində ölkəmizdə buna qarşı mübarizə güclənməkdədir. Hər il açılan fabrik və zavodlar insanların rahat həyat yaşaması, iqtisadi cəhətdən möhkəmlənməsi prosesinə təkan verir. Lakin ekoloji çirklənmə, təbii sərvətlərə müəyyən qədər zərər dəyməsi ilə bağlı məsələlərə daha ciddi yanaşmağa sövq edir. Bununla bağlı ictimaiyyətin xəbərdar olması adına təbiəti qorumağa yönəlmiş tədbirlər görülməsi vacibdir. Azərbaycan ekosisteminin nadir bitki örtüyünə malik olması, eyni zamanda canlı təbiətin qorunması üçün bir çox işlər görülməsi təbiətə dəyər verməli olduğumuzu bizə göstərir. Bu düşüncənin prinsipləri təbii mühitdən kifayət qədər faydalanmaq və davamlı olaraq inkişafı təmin etmək adına olmalıdır. Təbiəti mühafizə baxımından əhəmiyyətli işlərin aparılması dünya ekoloji mühitində vacibdir.

Folklor ədəbiyyatında təbiət, ümumiyyətlə, insanların inamları, mədəniyyətləri, adət-ənənələrini yansıtan önəmli faktordur. Xüsusilə, şeirlərdə, nağıllarda, əfsanələrdə, digər xalq yaradıcılığı nümunələrində tez-tez istifadə olunur. Təbiətin qeyri-adi gücünün insanlar üzərində böyük təsiri vurğulanır. Bu isə insanların təbiətə olan heyranlığı, bağlılığı və adətən, coğrafi məskunlaşma, bitki örtüyü, heyvanat aləmi, iqlim dəyişkənlikləri ilə əlaqədar olaraq ortaya çıxır. Təbiət xalq nağıllarında bəzən obrazların macəralarına təsir edən arxa fonda istifadə olunur. Buna baxmayaraq, obrazın bacarıqlarına təsir edən nümunə olaraq məna qazanır. Xalq nağıllarında əsas obrazın müxtəlif təbiət varlıqlarından kömək istəməsi, ən çıxılmaz vəziyyətdə təbiətin yardıma çatması vacib nüansdır.

Xalqın epik və etnik yaddaşı onun folklorudur. Folkloru bilmədən millətin psixologiyasına, fəlsəfi düşüncələrinə, yaşayış tərzinə bələd ola bilmərik. Nümunə olaraq qeyd edə bilərik ki, mövsümi nəğmələrdə təbiətə vurğunluqdan daha çox, təbiətin verəcəyi nemətlərə ehtiyac ön plana keçir. Məsələn yağışın uzun müddət yağmamağı quraqlıq olmasına, əkin sahələrində, bağ və bostanlarda bitki örtüyünün məhv olmasına ciddi təsir edir. Bu, eyni zamanda qıtlıq və aclıqla nəticələnir.

Bir yağış arzusu ilə insanlar kənd ağsaqqalları ilə birlikdə dağlara çıxar, ”Qodu“, ”Yağış yağ“ mərasimlərinə hazırlıq görər, yağmur dualarını oxuyardılar. Ehtiyac olarsa, bütün camaat bu ayinlərdə iştirak edərdi, qurbanlar kəsilərdi. Böyük qazanlarda “yağmur aşı” hazırlanardı.

Allah, bir yağış elə,
Dam-divarı yaş elə.
Paşa qızı keçəndə
Babıçını yaş elə.

”Yağmur aşı“ yoldan keçənlərə – fəqirlərə ehsan edilərdi. İnsanlar yağışın yağmamasını təbiətin onları cəzalandırması kimi anlayardı.

Ümumtürk folklorunu Azərbaycanla birləşdirən xüsusiyyətlər, təbiət hadisələrinə qeyri-adi yanaşma insanların dini etiqad və əqidələrinin formalaşmasında əsaslı rol oynayıb. Təbiət istər yazılı, istər şifahi ədəbiyyatımızda təbiətə vurğunluq baxımından tez-tez müraciət olunan mövzulardandır.

**Ədəbiyyat:**


1. Azərbaycan Folkloru Antologiyası "Ağbaba Folkloru". Bakı, 1997, s. 3-4.
2. Şifahi Xalq Ədəbiyyatı "Folklor".
3. Azərbaycan Folkloru Antologiyası, 2-ci cild, Bakı, 1999, s. 76, 78, 167.
4. Azərbaycan Xalq Ədəbiyyatı "El Çələngi". Bakı, 2004.